## SƏRƏNCAMLAR


- 1990-cı il yanvar hadisələrinin üçüncü ildönümünü hazırlayan və keçirən komissiya haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2 dekabr, 1992) ....3
- 20 Yanvar faciəsinin 5-ci ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (8 yanvar, 1995) ....4
- 20 Yanvar faciəsinin 6-cı ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (9 yanvar, 1996) ....6
- 20 Yanvar faciəsinin 8-ci ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası prezidentinin Sərəncamı (6 yanvar, 1998) ....7
- 20 Yanvar faciəsinin 9-cu ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (8 yanvar, 1999) ....9
- 20 yanvar faciəsinin 10-cu ildönümünün keçirilməsi üzrə dövlət komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (17 dekabr, 1999) ....11
- 20 Yanvar hadisələrində şəhid olanların, itkin düşənlərin ailələrinə və əlil olan şəxslərə birdəfəlik dövlət yardımı haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (17 yanvar, 2000) ....13
- 20 Yanvar faciəsinin on birinci ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (5 yanvar, 2001) ....14
- 20 Yanvar faciəsinin on ikinci ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (5 yanvar, 2002) ....16
- "20 Yanvar şəhidi" fəxri adinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (28 yanvar, 2002) ....19
- 20 Yanvar faciəsinin on üçüncü ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (28 dekabr, 2002) ....20
- 20 Yanvar faciəsinin on dördüncü ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (9 yanvar, 2004) ....22
- 20 Yanvar faciəsinin on beşinci ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (3 yanvar, 2005) ....23
- 20 Yanvar faciəsinin 16-cı ildönümünə dair tədbirlər planı təsdiq edilmişdir (14 yanvar, 2006) ....25
- 20 Yanvar faciəsinin 17-ci ildönümünə dair tədbirlər planı təsdiq edilmişdir (17 yanvar, 2007) ....26
- 20 yanvar faciəsinin 18-ci ildönümünə dair tədbirlər planı təsdiq edilmişdir (10 yanvar, 2008) ....27
- "20 Yanvar şəhidi" fəxri adinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (6 fevral, 2008) ....28
- 20 Yanvar faciəsinin 19-cu ildönümünə dair tədbirlər planı təsdiq edilmişdir (6 yanvar, 2009) ....29

- 20 Yanvar faciəsinin 20-ci ildönümünə dair tədbirlər planı təsdiq edilmişdir (15 dekabr, 2009)................30
- 20 Yanvar faciəsinin iyirmi birinci ildönümünə dair tədbirlər planı təsdiq edilib (7 dekabr, 2010).............31
- 20 Yanvar faciəsinin iyirmi ikinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilmişdir (31 dekabr, 2011).......................................................................................................................32
- Prezident Administrasiyası rəhbərinin Sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi üçüncü ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilmişdir (29 dekabr, 2012)...................................................33
- Prezident Administrasiyası rəhbərinin Sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi dördüncü ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilmişdi (2 yanvar, 2014)........................................................34
- "20 Yanvar faciəsinin iyirmi beşinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib (2 yanvar, 2015).......................................................................................................................35
- 20 Yanvar faciəsinin 26-cı ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilib (2 yanvar, 2016) .......................................................................................................................36
- 20 Yanvar faciəsinin 27-ci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilib (6 yanvar, 2017) .......................................................................................................................37
- "20 Yanvar Şəhidi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (16 may, 2017).......................................................................................................................38
- "20 Yanvar Şəhidi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2 avqust, 2017).......................................................................................................................39
- 20 Yanvar faciəsinin 28-ci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiqlənib (4 yanvar, 2018).40
- 20 Yanvar faciəsinin 29-cu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiqlənib (3 yanvar, 2019)41
- 20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (13 dekabr, 2019).......................................................................................................................42

# 1990-cı il yanvar hadisələrinin üçüncü ildönümünü hazırlayan və keçirən komissiya haqqında Azərbaycan Respublikası prezidentinin sərəncamı
# (2 dekabr 1992)

1990-cı ildə Bakı şəhərində və respublikanın digər yaşayış məntəqələrində baş vermiş faciəli yanvar hadisələrinə həsr olunmuş hüzn gününün keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə xüsusi komissiya yaradılsın:

**V. Q. Əhmədov**—komissiyanın sədri, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini;

**Komissiyanın üzvləri:**

**R. H. Qazıyev** — Azərbaycan Respublikasının müdafiə naziri.

**Q. Y. Əbdülsəlimzadə** — Azərbaycan Respublikası Dövlət Əmlak Komitəsinin sədri.

**R. M. Gülməmmədov** — Bakı şəhəri İcra hakimiyyətinin başçısı.

**A. H. Paşazadə** — Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri, şeyxülislam.

**A. R. Rzayev (Anar)** — Azərbaycan Yazıçılar Birliyinin sədri.

**T. M. Seyidov** — AXC İcraiyyə Komitəsinin sədri.

**İ. M. Həmidov** — Azərbaycan Respublikasının daxili işlər naziri.

Bakı şəhəri, 2 dekabr 1992-ci il.

## 20 Yanvar faciəsinin 5-ci ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (8 yanvar 1995)

Azərbaycanın öz suverenliyi uğrunda ilk şəhidlərini verdiyi Qanlı yanvar faciəsindən 5 il keçir.

Vətənimizin bütövlüyü, torpağımızın toxunulmazlığı, xalqımızın azadlığı, dövlətimizin müstəqilliyi uğrunda mübarizədə şəhidlik zirvəsinə ucalmış Azərbaycan övladlarının — Qanlı yanvar hadisələrinin günahsız qurbanlarının əziz xatirələrini ehtiramla yad edərək 20 Yanvar faciəsinin 5-ci ildönümü münasibətilə qərara alıram:

1. 20 Yanvar faciəsinin 5-ci ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

**İzzət Rüstəmov** — Baş nazirin müavini (sədr)

**Rəfael Allahverdiyev** — Bakı şəhəri İcra hakimiyyətinin başçısı

**Allahşükür Paşazadə** — Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri

**Eldar Salayev** — Elmlər Akademiyasının prezidenti

**Anar Rzayev** — Yazıçılar Birliyinin sədri

**Bəxtiyar Vahabzadə** — xalq şairi

**Arif Məlikov** — xalq artisti, bəstəkar

**Fatma Abdullazadə** — Prezident aparatı humanitar siyasət şöbəsinin müdiri

**Yusif Hümbətov** — Prezident aparatı Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

**Polad Bülbüloğlu** — mədəniyyət naziri

**Lidiya Rəsulova** — təhsil naziri

**Sabir Rüstəmxanlı** — mətbuat və informasiya naziri

**Məmmədrəfi Məmmədov** — müdafiə naziri

**Ramil Usubov** — daxili işlər naziri

**Əli İnsanov** — səhiyyə naziri

**Fikrət Yusifov** — maliyyə naziri

**İlqar Rəhimov** — əmək və əhalinin sosial müdafiəsi nazirinin əvəzi

**Babək Məmmədov** — Dövlət Teleradio Verilişləri Şirkətinin sədri

**Qüdrət Əbdülsəlimzadə** — Dövlət Əmlak Komitəsinin sədri

**Səttar Mehbalıyev** — Azərbaycan həmkarlar İttifaqları Konfederasiyasının sədri

**Nadejda İsmayılova** — jurnalist

**Xamis Muradov** — kinorejissor

2. Bu sərəncama əlavə olunan "20 Yanvar faciəsinin beşinci ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilsin.

3. Azərbaycan Respublikasının Milli Məclisinə təklif olunsun ki, 1994-cü il 29 mart tarixli 795 №-li qərarında nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etsin.

**Heydər ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 8 yanvar 1995-ci il.*

## 20 Yanvar faciəsinin 6-cı ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (9 yanvar 1996)

Azərbaycana qarşı edilmiş hərbi təcavüz nəticəsində baş vermiş Qanlı Yanvar faciəsinin altıncı ildönümü münasibətilə **qərara alıram**:

20 Yanvar faciəsində 6-cı ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə hökumət komissiyası yaradılsın

**İzzət Rüstəmov** — Azərbaycan Respublikası Baş nazirinin müavini (sədr)

**Rəfael Allahverdiyev** — Bakı şəhəri İcra Hakimiyyətinin başçısı

**Fatma Abdullazadə** — Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri

**Yusif Hümbətov** — Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

**Polad Bülbüloğlu** — Azərbaycan Respublikasının mədəniyyət naziri

**Lidiya Rəsulova** — Azərbaycan Respublikası təhsil naziri

**Səfər Əbiyev** — Azərbaycan Respublikasının müdafiə naziri

**Ramil Usubov** — Azərbaycan Respublikasının daxili işlər naziri

**Fikrət Yusifov** — Azərbaycan Respublikasının maliyyə naziri

**İlqar Rəhimov** — Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

**Səttar Mehbalıyev** — Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

**Allahşükür Paşazadə** — Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri

**Babək Məmmədov** — Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri

**Heydər ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 yanvar 1996-cı il*

# 20 Yanvar faciəsinin 8-ci ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası prezidentinin sərəncamı (6 yanvar 1998)

Azərbaycana qarşı edilmiş hərbi təcavüz nəticəsində baş vermiş Qanlı Yanvar faciəsinin səkkizinci ildönümü münasibəti ilə **qərara alıram**:

20 Yanvar faciəsinin səkkizinci ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə hökumət komissiyası yaradılsın:

**Komissiyanın sədri**

**İzzət Rüstəmov** — Azərbaycan Respublikası Baş nazirinin müavini

**Komissiyanın üzvləri**

**Rəfael Allahverdiyev** — Bakı şəhəri İcra Hakimiyyətinin başçısı

**Fatma Abdullazadə** — Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri

**Yusif Hümbətov** — Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

**Əli Həsənov** — Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının İctimai-siyasi şöbəsinin müdiri

**Polad Bülbüloğlu** — Azərbaycan Respublikasının mədəniyyət naziri

**Səfər Əbiyev** — Azərbaycan Respublikasının müdafiə naziri

**Ramil Usubov** — Azərbaycan Respublikasının daxili işlər naziri

**Fikrət Yusifov** — Azərbaycan Respublikasının maliyyə naziri

**Əli Nağıyev** — Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

**Nizami Xudiyev** — Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri

**Əhməd Abdinov** — Azərbaycan Respublikası təhsil nazirinin müavini

**Allahşükür Paşazadə** — Qafqaz Müsəlmanları İdarəsinin sədri

**Səttar Mehbalıyev** — Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

**Heydər ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 yanvar 1998-ci il*

## 20 Yanvar faciəsinin 9-cu ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (8 yanvar 1999)

Azərbaycana qarşı edilmiş hərbi təcavüz nəticəsində baş vermiş Qanlı Yanvar faciəsinin doqquzuncu ildönümü münasibəti ilə qərara alıram:

20 Yanvar faciəsinin doqquzuncu ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə hökumət komissiyası yaradılsın:

**Komissiyanın sədri**:

**Ramiz Mehdiyev** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri

**Komissiyanın üzvləri**:

**Əli Həsənov** - Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri

**İzzət Rüstəmov** - Azərbaycan Respublikası Baş nazirinin müavini səlahiyyətlərini icra edən

**Rəfael Allahverdiyev** - Bakı şəhər İcra Hakimiyyətinin başçısı

**Fatma Abdullazadə** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri

**Yusif Hümbətov** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

**Əli Həsənov** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının İctimai-siyasi şöbəsinin müdiri

**Səfər Əbiyev** - Azərbaycan Respublikasının müdafiə naziri

**Ramil Usubov** - Azərbaycan Respublikasının daxili işlər naziri

**Fikrət Yusifov** - Azərbaycan Respublikasının maliyyə naziri

**Əli Nağıyev** - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

**Misir Mərdanov** - Azərbaycan Respublikasının təhsil naziri

**Polad Bülbüloğlu** - Azərbaycan Respublikasının mədəniyyət naziri

**Nizami Xudiyev** - Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri

**Allahşükür Paşazadə** - Qafqaz Müsəlmanları İdarəsinin sədri

**Səttar Mehbalıyev** - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

**Heydər ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 8 yanvar 1999-cu il*

# 20 yanvar faciəsinin 10-cu ildönümünün keçirilməsi üzrə dövlət komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (17 dekabr 1999)

Azərbaycan Respublikası Prezidentinin 16 dekabr 1999-cu il tarixli 228 saylı fərmanına uyğun olaraq 20 Yanvar faciəsinin 10-cu ildönümü mərasimləri ilə bağlı tədbirlərin hazırlanması və həyata keçirilməsi məqsədilə aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

**Komissiyanın sədri**:

**Ramiz Mehdiyev** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri

**Komissiyanın üzvləri**:

**Əli Həsənov** - Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri

**Rəfael Allahverdiyev** - Bakı şəhər İcra Hakimiyyətinin başçısı

**Fatma Abdullazadə** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri

**Yusif Hümbətov** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

**Əli Həsənov** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının İctimai-siyasi şöbəsinin müdiri

**Vilayət Quliyev** - Azərbaycan Respublikasının xarici işlər naziri

**Səfər Əbiyev** - Azərbaycan Respublikasının müdafiə naziri

**Ramil Usubov** - Azərbaycan Respublikasının daxili işlər naziri

**Südabə Həsənova** - Azərbaycan Respublikasının ədliyyə naziri

**Eldar Həsənov** - Azərbaycan Respublikasının baş prokuroru

**Əli Nağıyev** - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

**Misir Mərdanov** - Azərbaycan Respublikasının təhsil naziri

**Polad Bülbüloğlu** - Azərbaycan Respublikasının mədəniyyət naziri

**Əbülfəs Qarayev** - Azərbaycan Respublikasının gənclər və idman naziri

**Nizami Xudiyev** - Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri

**Şamil Şahməmmədov** - Dövlət Teleqraf Agentliyinin baş direktoru

**Zəhra Quliyeva** - Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri

**Allahşükür Paşazadə** - Qafqaz Müsəlmanları İdarəsinin sədri

**Səttar Mehbalıyev** - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

**Heydər ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 dekabr 1999-cu il*

## 20 Yanvar hadisələrində şəhid olanların, itkin düşənlərin ailələrinə və əlil olan şəxslərə birdəfəlik dövlət yardımı haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (17 yanvar 2000)

1990-cı il yanvarın 20-də Azərbaycana edilmiş hərbi təcavüzün 10-cu ildönümü münasibəti ilə qərara alıram:

1. 20 Yanvar hadisələrində şəhid olanların, itkin düşənlərin ailələrinə və əlil olan şəxslərə bir milyon manat məbləğində birdəfəlik yardım ödənilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Heydər ƏLIYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 yanvar 2000-ci il*

# 20 Yanvar faciəsinin on birinci ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (5 yanvar 2001)

Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 yanvar hadisələrindən on bir il keçir.

1987-ci ildən başlayaraq ortaya atılan qondarma Dağlıq Qarabağ problemi XX əsrdə Azərbaycan xalqına qarşı düşünülmüş şəkildə həyata keçirilən qərəzli siyasətin növbəti bir mərhələsi idi. Ermənistanın respublikamıza ərazi iddialarının SSRİ rəhbərliyi tərəfindən açıq-aşkar dəstəklənməsi, Azərbaycan rəhbərlərinin isə bu məsələdə xəyanətkar mövqe tutması nəticəsində Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılması yolunda göstərilən cəhdlərin qarşısını almaq üçün xalqın ayağa qalxmaqdan başqa bir yolu qalmamışdı.

Totalitar sovet rejimi respublikada haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini qaldıran Azərbaycan xalqının inam və idarəsini qırmaq, milli mənliyini alçaltmaq məqsədilə 1990-cı il yanvarın 20-də tarixdə misli görünməmiş cinayətə əl atdı. Sovet Ordusu hissələrinin respublikamıza yeridilməsi ilə həyata keçirilmiş hərbi təcavüz nəticəsində dinc əhaliyə divan tutuldu, Azərbaycan xalqına qarşı kütləvi terror aktı baş verdi. Yüzlərlə günahsız insan yaralandı və qətlə yetirildi.

Xalqımız 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, ən ağır sınaqlara sinə gəlmək əzmini bütün dünyaya nümayiş etdirdi. 1990-cı ilin Qanlı Yanvarında Azərbaycanın şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.

Azərbaycanın azadlığı uğrunda şəhid olmuş vətəndaşlarımızın əziz xatirəsini dərin hüznlə yad edərək, xalqımıza qarşı törədilmiş qanlı faciənin 11-ci ildönümü münasibətilə **qərara alıram**:

20 Yanvar faciəsinin on birinci ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

**Komissiyanın sədri**:

**Ramiz Mehdiyev** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri

**Komissiyanın üzvləri**:

**Əli Həsənov** - Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin sədri

**Vilayət Quliyev** - Azərbaycan Respublikasının xarici işlər naziri

**Səfər Əbiyev** - Azərbaycan Respublikasının müdafiə naziri

**Ramil Usubov** - Azərbaycan Respublikasının daxili işlər naziri

**Fikrət Məmmədov** - Azərbaycan Respublikasının ədliyyə naziri

**Zakir Qaralov** - Azərbaycan Respublikasının baş prokuroru

**Əli Nağıyev** - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

**Misir Mərdanov** - Azərbaycan Respublikasının təhsil naziri

**Polad Bülbüloğlu** - Azərbaycan Respublikasının mədəniyyət naziri

**Əbülfəs Qarayev** - Azərbaycan Respublikasının gənclər və idman naziri

**Nizami Xudiyev** - Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri

**Allahşükür Paşazadə** - Qafqaz Müsəlmanları İdarəsinin sədri

**Zəhra Quliyeva** - Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri

**Məhəmməd Abbasov** - Bakı şəhər İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən

**Oqtay Mirqasımov** - "Azərkinovideo" İstehsalat Birliyinin baş direktoru

**Səttar Mehbalıyev** - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

**Yusif Hümbətov** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

**Əli Həsənov** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının İctimai-siyasi şöbəsinin müdiri

**Fatma Abdullazadə** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri

**Aslan Aslanov** - Azərbaycan Dövlət Teleqraf Agentliyi baş direktorunun birinci müavini

**Heydər ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 5 yanvar 2001-ci il*

# 20 Yanvar faciəsinin on ikinci ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (5 yanvar 2002)

Azərbaycan tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən on iki il keçir.

XX əsrin sonunda planetimizin siyasi leksikonuna "Dağlıq Qarabağ münaqişəsi” kimi daxil olan qondarma problem əslində Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının təzahürü idi. SSRİ hökumətinin dəstəyi və o vaxtkı Azərbaycan rəhbərliyinin xəyanətkar siyasəti nəticəsində xalqımızı böyük fəlakətlərlə üzləşdirən bu problem son nəticədə ölkəmizin ərazisinin 20 faizinin işğalına və bir milyondan artıq soydaşımızın qaçqın və köçkün vəziyyətinə düşməsinə gətirib çıxardı.

Azərbaycana qarşı aparılan mənəvi, ideoloji və siyasi təcavüz qısa bir müddət ərzində hərbi müstəviyə keçirildi. Xalqımızın Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycanın tərkibindən çıxarmaq məqsədi ilə yürüdülən qərəzli siyasətə kəskin etirazına baxmayaraq respublika rəhbərliyinin mərkəzlə həmfikir olması nəticəsində ümumittifaq səviyyədə bir sıra qeyri-qanuni qərarlar qəbul edildi. 1989-cu ilin yanvarında Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə Xüsusi İdarəetmə Komitəsinin yaradılması ilə Dağlıq Qarabağ Moskva nümayəndəsinin qəbul etdiyi qərarlar əsasında idarə olunmağa başladı və əslində, Azərbaycanın bütün hakimiyyət orqanlarının tabeliyindən çıxarıldı. Bununla yanaşı mərkəzin himayəsi altında Azərbaycanın müxtəlif rayonlarına erməni terroristlərinin göndərilməsi siyasəti geniş miqyas aldı. Sovet Ordusunun ağır texnikası, o cümlədən tankların, artilleriya və zenit-raket qurğularının Ermənistana ötürülməsi kimi qanunsuz əməllər baş verməkdə idi, Azərbaycan xalqı bütün bu addımları öz ölkəsinin ərazi bütövlüyünə yolverilməz qəsd kimi qiymətləndirdi.

Mərkəz bütün vasitələrlə, o cümlədən mətbuat səhifələrində Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyin etmək hüququnu birmənalı şəkildə müdafiə edirdi. SSRİ-nin xüsusi xidmət orqanları Azərbaycan rəhbərliyinin köməyi ilə Bakıda və Azərbaycanın digər rayonlarında bir sıra təxribat xarakterli hadisələr törədərək Azərbaycan xalqına qarşı hazırlanan hərbi təcavüz üçün zəmin yaradırdı.

SSRİ rəhbərliyi Dağlıq Qarabağı Azərbaycandan qoparmaq üçün yeritdiyi məqsədyönlü siyasətə qarşı çıxmağa cəsarət edən Azərbaycan xalqına açıq-aşkar divan tutmaq yolunu seçdi. Sovet Ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların 1990-cı il yanvarın 20-də fövqəladə vəziyyət elan olunmadan Bakını işğal etməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklərlə müşayiət edildi. Yüzlərlə insan amansızcasına qətlə yetirildi və yaralandı. XX əsr tarixində totalitarizmin həyata keçirdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı, ümumiyyətlə humanizmə və insanlığa qarşı yönəldilmiş dəhşətli cinayət idi.

SSRİ-nin başqa regionlarında, o cümlədən Tbilisidə və Baltikyanı ölkələrdə sovet hərb sisteminin törətdiyi qanlı hadisələr müxtəlif səviyyələrdə, o cümlədən SSRİ xalq deputatları qurultayı səviyyəsində müzakirə edilsə də, 20 Yanvar faciəsi zamanı baş vermiş hadisələr şüurlu surətdə təhrif olunur və unutdurulurdu. Hətta Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra Qanlı Yanvar hadisələrinə rəsmi münasibət uzun müddət

dəyişmədi. Yalnız 1994-cü ildə 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymət verildi, Azərbaycan tarixində onun yeri və mahiyyəti müəyyən edildi.

Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşların əziz xatirəsini dərin hüznlə yad edərək sovet imperiyası tərəfindən Azərbaycana qarşı edilmiş hərbi təcavüz nəticəsində baş vermiş Qanlı Yanvar faciəsinin on ikinci ildönümü münasibəti ilə **qərara alıram**:

20 Yanvar faciəsinin on ikinci ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

**Ramiz Mehdiyev -** Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri, **sədr**

**Əli Həsənov -** Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri

**Vilayət Quliyev -** Azərbaycan Respublikasının xarici işlər naziri

**Səfər Əbiyev -** Azərbaycan Respublikasının müdafiə naziri

**Ramil Usubov -** Azərbaycan Respublikasının daxili işlər naziri

**Zakir Qaralov -** Azərbaycan Respublikasının Baş prokuroru

**Hacıbala Abutalıbov -** Bakı şəhər İcra Hakimiyyətinin başçısı

**Fikrət Məmmədov -** Azərbaycan Respublikasının ədliyyə naziri

**Əli Nağıyev -** Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

**Misir Mərdanov -** Azərbaycan Respublikasının təhsil naziri

**Polad Bülbüloğlu -** Azərbaycan Respublikasının mədəniyyət naziri

**Əbülfəs Qarayev -** Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri

**Nizami Xudiyev -** Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri

**Zəhra Quliyeva -** Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri

**Rafiq Əliyev -** Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri

**Yusif Hümbətov -** Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

**Əli Həsənov -** Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının İctimai-siyasi şöbəsinin müdiri

**Fatma Abdullazadə -** Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri

**Səttar Mehbalıyev -** Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

**Heydər ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 5 yanvar 2002-ci il*

# “20 Yanvar şəhidi” fəxri adinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (28 yanvar 2002)

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin vəsatətini nəzərə alaraq və Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli, 51 nömrəli Fərmanı ilə təsdiq edilmiş “20 Yanvar şəhidi” fəxri adı haqqında Əsasnamə”yə uyğun olaraq qərara alıram:

1. Azərbaycan Respublikasının aşağıdakı vətəndaşlarına “20 Yanvar şəhidi” fəxri adı verilsin:

**Həsənov Fuad Əvəz oğlu**

**Hüseynov Bəxtiyar Məmməd oğlu**

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 28 yanvar 2002-ci il*

# 20 Yanvar faciəsinin on üçüncü ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (28 dekabr 2002)

Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən on üç il keçir.

Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı bəşər tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi əbədi olaraq qalacaqdır. Öz qanunu konstitusiya hüquqlarının təmin edilməsi tələbləri ilə ayağa qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.

Azərbaycan xalqına qarşı törədilmiş bu qanlı faciə onun milli qürurunu və iradəsini sarsıda bilmədi. Qəhrəman Azərbaycan övladları xalqımızın böyük mənəvi gücünü ifadə edərək şəhidlik zirvəsinə qədər yüksəldilər və milli müstəqillik duyğularını daha da gücləndirdilər. Müstəqil Azərbaycan Respublikası 1994-cü ildə 20 Yanvar faciəsinin hərbi təcavüz və cinayət kimi tam siyasi-hüquqi qiymətini verdi, bu hadisələrin təşkilatçıları və bilavasitə icraçıları olan Mixail Qorbaçov, Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov və başqalarının cəzalandırılmasını tələb etdi. Təəssüf ki, 20 Yanvar faciəsinin baş verməsindən on üç il keçməsinə baxmayaraq, bu cinayətin səbəbkarları hələ də öz cəzalarını almamışlar.

Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək hər il 20 Yanvarda onların əziz xatirəsini dərin ehtiramla yad edir. 20 Yanvar gününün Azərbaycan tarixində ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıq rəmzi kimi müstəsna əhəmiyyətini nəzərə alaraq **qərara alıram**:

1. Azərbaycan Respublikasının bütün şəhər, rayon və kəndlərində 20 Yanvar faciəsinin on üçüncü ildönümünə həsr olunmuş tədbirlər keçirilsin.

2. Qanlı Yanvar faciəsinin on üçüncü ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

**Ramiz Mehdiyev** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri, **sədr**

**Əli Həsənov** - Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri

**Vilayət Quliyev** - Azərbaycan Respublikasının xarici işlər naziri

**Səfər Əbiyev** - Azərbaycan Respublikasının müdafiə naziri

**Ramil Usubov** - Azərbaycan Respublikasının daxili işlər naziri

**Zakir Qaralov** - Azərbaycan Respublikasının Baş prokuroru

**Hacıbala Abutalıbov** - Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

**Fikrət Məmmədov** - Azərbaycan Respublikasının ədliyyə naziri

**Əli Nağıyev** - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

**Əli İnsanov** - Azərbaycan Respublikasının səhiyyə naziri

**Misir Mərdanov** - Azərbaycan Respublikasının təhsil naziri

**Polad Bülbüloğlu** - Azərbaycan Respublikasının mədəniyyət naziri

**Əbülfəs Qarayev** - Azərbaycan Respublikasının gənclər, idman və turizm naziri

**Nizami Xudiyev** - Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri

**Aslan Aslanov** - Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) baş direktoru

**Zəhra Quliyeva** - Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri

**Rafiq Əliyev** - Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri

**Yusif Hümbətov** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

**Əli Həsənov** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının İctimai-siyasi şöbəsinin müdiri

**Fatma Abdullazadə** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri

**Allahşükür Paşazadə** - Qafqaz Müsəlmanları İdarəsinin sədri

**Səttar Mehbalıyev** - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

**Heydər ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 28 dekabr 2002-ci il*

# 20 Yanvar faciəsinin on dördüncü ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (9 yanvar 2004)

Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən on dörd il keçir.

Həmin gün respublikada haqq-ədalətin bərqərar edilməsi tələbləri ilə çıxış edən Azərbaycan xalqının inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq məqsədilə totalitar sovet rejiminin həyata keçirdiyi terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri baş verdi.

Yüzlərlə günahsız insan yaralandı və qətlə yetirildi. Ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.

Azərbaycan xalqı öz igid övladlarının fədakarlığını yüksək qiymətləndirərək, hər il 20 Yanvarda onların əziz xatirəsini böyük ehtiramla yad edir.

Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın əziz xatirəsini dərin hüznlə yad edərək, xalqımıza qarşı törədilmiş 20 Yanvar faciəsinin on dördüncü ildönümü münasibətilə **qərara alıram**:

1. Azərbaycan Respublikasının bütün şəhər, rayon və kəndlərində 20 Yanvar faciəsinin on dördüncü ildönümünə həsr olunmuş tədbirlər keçirilsin.

2. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, Qanlı Yanvar faciəsinin on dördüncü ildönümü ilə bağlı tədbirlərin hazırlanıb keçirilməsini təmin etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 yanvar 2004-cü il*

# 20 Yanvar faciəsinin on beşinci ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (3 yanvar 2005)

Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən on beş il keçir.

Artıq on beşinci ildir ki, Azərbaycan xalqı bu faciənin ağrısı ilə yaşayır. Süquta məhkum olmuş sovet rejimi öz son günlərində bütün tarixi boyu törətmiş olduğu cinayətlər sırasına misli görünməmiş bir vəhşilik aktı da əlavə etdi. Həmin gün Sovet Ordusu hissələri heç bir xəbərdarlıq edilmədən Bakı şəhərinə, eləcə də Azərbaycanın bir sıra digər şəhər və rayonlarına yeridilərək, Ermənistanın respublikamıza qarşı ərazi iddialarının SSRİ rəhbərliyi tərəfindən açıq-aşkar dəstəklənməsinə və o zamankı Azərbaycan rəhbərlərinin xəyanətkar siyasət yeritməsinə etiraz əlaməti olaraq ayağa qalxmış Azərbaycan xalqına vəhşicəsinə divan tutdu. Öz konstitusiya hüquqlarının bərqərar edilməsi tələbi ilə çıxış edən dinc, silahsız əhali güllələbaran edildi. Yüzlərlə günahsız insan yaralandı və qətlə yetirildi. Sovet rejiminin bu qanlı terror aktı bütün dünyada qətiyyətlə pisləndi.

20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.

Sovet hakimiyyətinin süqutundan və Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən sonra bir müddət başları hakimiyyət uğrunda mübarizəyə qarışmış Azərbaycan rəhbərləri xalqımıza qarşı törədilmiş bu ağır cinayətin səbəblərinin araşdırılması, ona siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Onlar bu məsələdə heç maraqlı da deyildilər, çünki həmin cinayətin törədilməsinin məsuliyyəti bu və ya digər dərəcədə onların da üzərinə düşürdü. Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinin mahiyyəti məhz onun təşəbbüsü və bilavasitə iştirakı ilə açıqlandı, onlara siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı.

Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək, hər il 20 Yanvarda onların xatirəsini dərin ehtiramla yad edir. 20 Yanvar gününün Azərbaycanın tarixində ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə qəhrəmanlıq rəmzi kimi böyük əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. Yerli icra hakimiyyəti orqanları əlaqədar təşkilatlarla birlikdə Azərbaycan Respublikasının bütün şəhər, rayon və kəndlərində 20 Yanvar faciəsinin on beşinci ildönümünə həsr olunmuş tədbirlər keçirsin.

2. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına tapşırılsın ki, 20 Yanvar faciəsinin on beşinci ildönümü ilə bağlı tədbirlər planının hazırlanıb həyata keçirilməsini təmin etsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 3 yanvar 2005-ci il*

## 20 Yanvar faciəsinin 16-cı ildönümünə dair tədbirlər planı təsdiq edilmişdir
## (14 yanvar 2006)

20 Yanvar faciəsinin 16-cı ildönümünün keçirilməsinə dair hazırlanmış tədbirlər planına uyğun olaraq, Ümumxalq hüzn günü və Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizə tarixinin qəhrəmanlıq səhifəsi kimi qeyd ediləcəkdir.

Respublikanın bütün şəhər və rayonlarında, idarə və təşkilatlarında 20 Yanvara həsr olunmuş tədbirlər keçirilməsi, yığıncaq və mühazirələrin, dini mərasimlərin təşkili, kütləvi informasiya vasitələrində bunların geniş işıqlandırılması nəzərdə tutulmuşdur.

Plana əsasən dünya ictimaiyyətinin diqqətini yenidən 20 Yanvar faciəsinə yönəltmək məqsədi ilə Azərbaycanın xaricdəki səfirliklərində və diplomatik nümayəndəliklərində, eləcə də Azərbaycan icmalarında müvafiq tədbirlər görüləcəkdir.

Yanvarın 19-da respublikanın bütün tədris müəssisələrində Qanlı Yanvara həsr edilmiş xüsusi dərs keçiriləcəkdir.

Yanvarın 20-də "Əbədi məşəl" abidəsi önünə Azərbaycan Prezidenti adından əklilqoyma mərasimi, Şəhidlər xiyabanını ümumxalq ziyarəti olacaqdır. Həmin gün Bakı vaxtı ilə saat 12.00-da bütün respublika ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək, sonra gəmilərdən, avtomobillərdən və qatarlardan səs siqnalları veriləcəkdir.

Tədbirlər planında nəzərdə tutulanların icrasına başlanmışdır.

**AzərTAc**

# 20 Yanvar faciəsinin 17-ci ildönümünə dair tədbirlər planı təsdiq edilmişdir
# (17 yanvar 2007)

20 Yanvar faciəsinin 17-ci ildönümünün keçirilməsinə dair hazırlanmış və Prezidentin İcra Aparatı rəhbərinin sərəncamı ilə təsdiqlənmiş tədbirlər planına uyğun olaraq, Ümumxalq Hüzn Günü ölkədə Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizə tarixinin qəhrəmanlıq rəmzi kimi qeyd ediləcəkdir.

Planda respublikanın bütün şəhər və rayonlarında, idarə və təşkilatlarında 20 Yanvara həsr olunmuş tədbirlər keçirilməsi, yığıncaq və mühazirələrin, dini mərasimlərin təşkili, kütləvi informasiya vasitələrində bunların geniş işıqlandırılması nəzərdə tutulmuşdur. Bu tədbirlər 20 Yanvar hadisələrinin mahiyyətinin üzə çıxarılmasına kömək edəcəkdir.

Sənəddə, həmçinin faciə qurbanlarının ailələrinə humanitar yardım göstərilməsi, yanvarın 19-da respublikanın bütün tədris müəssisələrində Qanlı Yanvar hadisələrinə həsr edilmiş xüsusi dərslərin keçilməsi nəzərdə tutulmuşdur.

Plana əsasən, dünya ictimaiyyətinin diqqətini yenidən 20 Yanvar faciəsinə yönəltmək məqsədi ilə Azərbaycanın xarici ölkələrdəki səfirliklərində və diplomatik nümayəndəliklərində, eləcə də Azərbaycan icmalarında müvafiq tədbirlər görüləcəkdir.

Yanvarın 20-də "Əbədi məşəl" abidəsi önünə Azərbaycan Prezidenti adından əklilqoyma mərasimi, Şəhidlər Xiyabanını ümumxalq ziyarəti olacaqdır. Həmin gün Bakı vaxtı ilə saat 12.00-da bütün respublika ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək, sonra gəmilərdən, avtomobillərdən və qatarlardan səs siqnalları veriləcəkdir.

Tədbirlər planında nəzərdə tutulanların icrasına başlanmışdır.

**AzərTAc**

# 20 yanvar faciəsinin 18-ci ildönümünə dair tədbirlər planı təsdiq edilmişdir
# (10 yanvar 2008)

Azərbaycan Respublikası Prezidenti İcra Aparatı rəhbərinin Sərəncamı ilə "20 Yanvar faciəsinin on səkkizinci ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilmişdir.

Sənəddə respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda faciənin ildönümünə həsr olunmuş tədbirlərin - konfrans, yığıncaq və mühazirələrin keçirilməsi, bu tədbirlərin mətbuatda ətraflı işıqlandırılması, dünyanın aparıcı KİV-də, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materiallar verilməsi nəzərdə tutulmuşdur.

Tədbirlər planına əsasən, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər xiyabanı ərazisində təmizlik-abadlıq işləri görüləcəkdir. Qanlı Yanvar faciəsinə dünya ictimaiyyətinin diqqətini yenidən yönəltmək məqsədi ilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri və diplomatik nümayəndəlikləri, həmçinin Azərbaycan icmaları vasitəsilə müvafiq tədbirlər həyata keçirəcəklər.

Respublikanın şəhər və rayonlarında da müvafiq tədbirlər planı qəbul olunmuş və icrasına başlanmışdır.

**AzərTAc**

# "20 Yanvar şəhidi" fəxri adinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (6 fevral 2008)

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin vəsatətini nəzərə alaraq və Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli 51 nömrəli Fərmanı ilə təsdiq edilmiş "20 Yanvar Şəhidi" fəxri adı haqqında Əsasnamə"yə uyğun olaraq qərara alıram:

1. Azərbaycan Respublikasının aşağıdakı vətəndaşlarına "20 Yanvar şəhidi" fəxri adı verilsin:

**Cabbarov Firuz Vəli oğlu**

**Hüseynov Nizami Polad oğlu**

**İbadzadə Ağamehdi Seyfulla oğlu**

**Məmmədov İlham İslam oğlu**

**Novruzov Tofiq Heydər oğlu**

**Rəhimov Rəhim İsmayıl oğlu**

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 fevral 2008-ci il*

# 20 Yanvar faciəsinin 19-cu ildönümünə dair tədbirlər planı təsdiq edilmişdir
## (6 yanvar 2009)

Azərbaycan Respublikası Prezidenti İcra Aparatı rəhbərinin Sərəncamı ilə “20 Yanvar faciəsinin on doqquzuncu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı” təsdiq edilmişdir.

Sənəddə respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda faciənin ildönümünə həsr olunmuş tədbirlərin - konfrans, yığıncaq və mühazirələrin keçirilməsi, bu tədbirlərin mətbuatda ətraflı işıqlandırılması, dünyanın aparıcı KİV-də, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materiallar verilməsi nəzərdə tutulmuşdur.

Tədbirlər planına əsasən, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər xiyabanı ərazisində təmizlik-abadlıq işləri aparılacaq, bütün tədris müəssisələrində yanvarın 19-da faciəyə həsr olunmuş xüsusi dərs keçiləcəkdir. Qanlı Yanvar faciəsinə dünya ictimaiyyətinin diqqətini yenidən yönəltmək məqsədi ilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri və diplomatik nümayəndəlikləri, həmçinin Azərbaycan icmaları vasitəsilə müvafiq tədbirlər görüləcəkdir.

Respublikanın şəhər və rayonlarında da müvafiq tədbirlər planı qəbul olunmuş və icrasına başlanmışdır.

**AzərTAc**

# 20 Yanvar faciəsinin 20-ci ildönümünə dair tədbirlər planı təsdiq edilmişdir
## (15 dekabr 2009)

Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin Sərəncamı ilə “20 Yanvar faciəsinin iyirminci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı” təsdiq edilmişdir.

Sənəddə respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda faciənin ildönümünə həsr olunmuş tədbirlərin - konfrans, yığıncaq və mühazirələrin keçirilməsi, bu tədbirlərin mətbuatda ətraflı işıqlandırılması, dünyanın aparıcı KİV-lərində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində Qanlı 20 Yanvar barədə materiallara geniş yer verilməsi nəzərdə tutulmuşdur.

Tədbirlər planına əsasən, dünya ictimaiyyətinin diqqətini yenidən Qanlı Yanvar faciəsinə yönəltmək üçün Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, Azərbaycan icmaları tərəfindən müvafiq tədbirlər həyata keçiriləcəkdir.

20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər xiyabanı ərazisində təmizlik-abadlıq işləri aparılacaq, bütün tədris müəssisələrində yanvarın 19-da faciəyə həsr olunmuş xüsusi dərs keçiləcəkdir.

Yanvarın 20-də Bakı vaxtı ilə saat 12.00-da ölkə ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək, gəmilər, avtomobillər və qatarlar səs siqnalları verəcəkdir.

Respublikanın şəhər və rayonlarında da müvafiq tədbirlər planı qəbul olunmuş və icrasına başlanmışdır.

Həmin gün ölkə ərazisində matəm əlaməti olaraq Azərbaycanın dövlət bayraqları endiriləcəkdir.

**AzərTAc**

## 20 Yanvar faciəsinin iyirmi birinci ildönümünə dair tədbirlər planı təsdiq edilib
## (7 dekabr 2010)

Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi birinci ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib. Məlumatı AzərTAc Dövlət İnformasiya Agentliyi yayıb.

Sənəddə respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda faciənin ildönümünə həsr olunmuş tədbirlərin - konfrans, yığıncaq və mühazirələrin keçirilməsi, tamaşa, sənədli və bədii filmlərin nümayiş etdirilməsi, bu tədbirlərin mətbuatda ətraflı işıqlandırılması, dünyanın aparıcı KİV-lərində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində Qanlı 20 Yanvar barədə materiallara geniş yer verilməsi nəzərdə tutulub. Tədbirlər planına əsasən, dünya ictimaiyyətinin diqqətini yenidən Qanlı Yanvar faciəsinə yönəltmək üçün Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, Azərbaycan icmaları tərəfindən müvafiq tədbirlər həyata keçiriləcək.

20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər xiyabanı ərazisində təmizlik-abadlıq işləri aparılacaq, bütün tədris müəssisələrində faciəyə həsr olunmuş xüsusi dərs keçiləcək.

Yanvarın 20-də Bakı vaxtı ilə saat 12:00-da ölkə ərazisində şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad ediləcək, gəmilər, avtomobillər və qatarlar səs siqnalları verəcək.

Respublikanın şəhər və rayonlarında da müvafiq tədbirlər planı qəbul olunmuş və icrasına başlanıb.

Həmin gün ölkə ərazisində matəm əlaməti olaraq Azərbaycanın dövlət bayraqları endiriləcək.

**Trend.az**

# 20 Yanvar faciəsinin iyirmi ikinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilmişdir
## (31 dekabr 2011)

Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə “20 Yanvar faciəsinin iyirmi ikinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı” təsdiq edilmişdir.

Sənəddə respublikanın bütün şəhər və rayonlarında, o cümlədən müəssisə, idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı konfrans, “dəyirmi masa” və mühazirələrin təşkil olunması, bu tədbirlərin mətbuatda ətraflı işıqlandırılması, faciənin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması məqsədi ilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri və Azərbaycan icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulmuşdur.

Tədbirlər planına əsasən, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər xiyabanı ərazisində təmizlik-abadlıq işləri aparılacaq, bütün tədris müəssisələrində yanvarın 19-da faciəyə həsr olunmuş xüsusi dərs keçiləcək, Azərbaycanda təmsil olunan əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə xüsusi dini mərasimlər təşkil olunacaqdır.

Bundan başqa, sənəddə paytaxt ictimaiyyətinin Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, ardınca isə gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində matəm əlaməti olaraq və faciə qurbanlarının xatirəsini yad etmək məqsədi ilə dövlət bayraqlarının endirilməsi və digər tədbirlər nəzərdə tutulmuşdur.

**AzərTAc**

# Prezident Administrasiyası rəhbərinin Sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi üçüncü ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilmişdir
# (29 dekabr 2012)

Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin Sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi üçüncü ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilmişdir.

Sənəddə respublikanın bütün şəhər və rayonlarında, o cümlədən idarə, müəssisə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı toplantı, konfrans və mühazirələrin təşkil olunması, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayiş etdirilməsi, bu tədbirlərin mətbuatda geniş işıqlandırılması, faciənin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması məqsədi ilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri və Azərbaycan icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulmuşdur.

Tədbirlər planına əsasən, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər Xiyabanı ərazisində təmizlik-abadlıq işləri aparılacaq, bütün tədris müəssisələrində yanvarın 18-də faciəyə həsr olunmuş xüsusi dərs keçiriləcək, Azərbaycanda təmsil olunan əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə xüsusi dini mərasimlər təşkil olunacaqdır.

Bundan başqa, sənəddə paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər Xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, ardınca isə gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, gün ərzində Şəhidlər Xiyabanında matəm musiqisinin səsləndirilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində matəm əlaməti olaraq və faciə qurbanlarının xatirəsini yad etmək məqsədi ilə dövlət bayraqlarının endirilməsi və digər tədbirlər nəzərdə tutulmuşdur.

**AzərTAc**

## Prezident Administrasiyası rəhbərinin Sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi dördüncü ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilmişdi (2 yanvar 2014)

Sənəddə respublikanın bütün şəhər və rayonlarında, o cümlədən idarə, müəssisə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı toplantı, konfrans və mühazirələrin təşkil olunması, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayiş etdirilməsi, bu tədbirlərin mətbuatda geniş işıqlandırılması, faciənin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması məqsədi ilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri və diaspor qurumları tərəfindən müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulmuşdur.

Tədbirlər planına əsasən, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, yanvarın 17-də bütün tədris müəssisələrində faciəyə həsr olunmuş xüsusi dərs keçiləcək, Azərbaycanda təmsil olunan əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə dini mərasimlər təşkil olunacaqdır.

Bundan başqa, sənəddə paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, gün ərzində Şəhidlər xiyabanında matəm musiqisinin səsləndirilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində matəm əlaməti olaraq və faciə qurbanlarının xatirəsini yad etmək məqsədi ilə dövlət bayraqlarının endirilməsi və digər tədbirlər nəzərdə tutulmuşdur.

**"Xalq qəzeti"**

# "20 Yanvar faciəsinin iyirmi beşinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib
## (2 yanvar 2015)

Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin Sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi beşinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib.

Sənəddə respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı toplantı, konfrans və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayiş etdirilməsi, bu tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltmək məqsədi ilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri və diaspor qurumları tərəfindən müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulub.

Tədbirlər planına əsasən, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, Azərbaycanda təmsil olunan əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, sənəddə paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, gün ərzində Şəhidlər xiyabanında matəm musiqisinin səsləndirilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər nəzərdə tutulub.

**AzərTAc**

# 20 Yanvar faciəsinin 26-cı ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilib
# (2 yanvar 2016)

Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin Sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi altıncı ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib.

AZƏRTAC xəbər verir ki, sənəddə respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı konfrans, toplantı və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayiş etdirilməsi, bu tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, diaspor qurumları və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulub.

Tədbirlər planına əsasən, respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs aparılacaq, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, Azərbaycanda təmsil olunan əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, Sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, gün ərzində Şəhidlər xiyabanında matəm musiqisinin səsləndirilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər nəzərdə tutulub.

**AzərTAc**

## 20 Yanvar faciəsinin 27-ci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilib
## (6 yanvar 2017)

Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin Sərəncamı ilə “20 Yanvar faciəsinin iyirmi yeddinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı” təsdiq edilib.

AZƏRTAC xəbər verir ki, sənəddə respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı konfrans, toplantı və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayiş etdirilməsi, bu tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulub.

Tədbirlər planına əsasən, respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçiriləcək, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, Azərbaycanda fəaliyyət göstərən əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, Sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, gün ərzində Şəhidlər xiyabanında matəm musiqisinin səsləndirilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər nəzərdə tutulub.

# "20 Yanvar Şəhidi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (16 may 2017)

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli 51 nömrəli Fərmanı ilə təsdiq edilmiş "20 Yanvar Şəhidi" fəxri adı haqqında Əsasnamə"yə uyğun olaraq qərara alıram:

1. 1990-cı il 20 Yanvar hadisələri nəticəsində aldıqları xəsarətlərdən vəfat etmiş aşağıdakı şəxslərə "20 Yanvar Şəhidi" fəxri adı verilsin:

Adilov Musa Ramazan oğlu

Məmmədova Rəna Təyyar qızı.

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 may 2017-ci il.

## “20 Yanvar Şəhidi” fəxri adının verilməsi haqqında
## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
## (2 avqust 2017)

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli 51 nömrəli Fərmanı ilə təsdiq edilmiş “20 Yanvar Şəhidi” fəxri adı haqqında Əsasnamə”yə uyğun olaraq qərara alıram:

1. 1990-cı il 20 Yanvar hadisələri nəticəsində həlak olmuş Ağayev Şövkət Həsənoviçə “20 Yanvar Şəhidi” fəxri adı verilsin.

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 avqust 2017-ci il.

## 20 Yanvar faciəsinin 28-ci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiqlənib
## (4 yanvar 2018)

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə “20 Yanvar faciəsinin iyirmi səkkizinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı” təsdiq edilib.

AZƏRTAC xəbər verir ki, sənədə əsasən respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı konfrans, toplantı və mühazirələrin təşkili, 20 Yanvar gününün Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizə rəmzi kimi qeyd olunması ilə bağlı tədbirlərin keçirilməsi, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların, bədii və sənədli filmlərin nümayiş etdirilməsi nəzərdə tutulur.

Həmçinin dünya ictimaiyyətinin diqqətini bu faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar hadisələri barədə müxtəlif dillərdə materialların hazırlanması və yayılmasının təmin olunması barədə tapşırıqlar verilib.

Tədbirlər planına əsasən, respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçiriləcək, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardımlar göstəriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, Azərbaycanda fəaliyyət göstərən əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə həsr olunan dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində 20 Yanvar faciəsinin iyirmi səkkizinci ildönümü ilə əlaqədar hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər planlaşdırılır.

## 20 Yanvar faciəsinin 29-cu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiqlənib (3 yanvar 2019)

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə “20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı” təsdiq edilib.

AZƏRTAC xəbər verir ki, sənədə əsasən respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarda 20 Yanvar hadisələrinin mahiyyətini əks etdirən konfrans, toplantı və mühazirələrin təşkili, 20 Yanvar gününün Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizə rəmzi kimi qeyd olunması ilə bağlı tədbirlərin keçirilməsi, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların, bədii və sənədli filmlərin nümayiş etdirilməsi nəzərdə tutulur.

Həmçinin dünya ictimaiyyətinin diqqətini bu faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar hadisələri barədə müxtəlif dillərdə materialların hazırlanması və yayılmasının təmin olunması barədə tapşırıqlar verilib.

Tədbirlər planına əsasən, respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçiriləcək, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardımlar göstəriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, faciə qurbanlarının xatirəsinə həsr olunan dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində 20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümü ilə əlaqədar hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər planlaşdırılır.

## 20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (13 dekabr 2019)

Azərbaycan tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən otuz il keçir. Xalqımız indiyədək bu faciənin ağrı-acısı ilə yaşayır.

1987-ci ilin sonlarında yenidən ortaya atılmış qondarma Dağlıq Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyünün pozulmasına, torpaqlarımızın işğalına, Ermənistanda və Dağlıq Qarabağda yaşayan yüz minlərlə azərbaycanlının öz doğma yurdlarından qovulmasına yönəlmişdi. Keçmiş Sovet İttifaqının iki respublikası arasında başlanan bu münaqişə XIX–XX yüzilliklərdə ermənilərin Azərbaycan torpaqlarında ardıcıl məskunlaşdırılması, habelə xalqımıza qarşı məqsədyönlü şəkildə aparılmış etnik təmizləmə və soyqırımı siyasətinin növbəti mərhələsi idi.

Ermənistan SSR-in respublikamıza ərazi iddialarına, radikal erməni millətçiləri tərəfindən qızışdırılan separatizmə və soydaşlarımız əleyhinə törədilən kütləvi zorakılıqlara SSRİ rəhbərliyinin bilavasitə və ya dolayısı ilə dəstək verməsi, habelə Azərbaycanın o zamankı rəhbərlərinin cinayətkar qətiyyətsizliyi və milli maraqlara zidd addımları xalqımızı respublikanın ərazi bütövlüyünün qorunması naminə ayağa qalxmağa sövq etdi. Beləliklə, respublikada geniş sosial spektrli xalq hərəkatı yarandı və proseslərin gedişi onun tədricən milli azadlıq hərəkatına çevrilməsinə zəmin yaratdı.

Azərbaycan xalqının haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini hiddətlə ucaldaraq imperiya buxovlarından birdəfəlik qurtulmağa can atmasından təşvişə düşən SSRİ rəhbərliyi, əslində, sovet totalitar rejiminin süqutunu daha da sürətləndirən müdhiş cinayətə əl atdı. Mərkəzi hakimiyyət 1990-cı il yanvar ayının 19 dan 20-nə keçən gecə beynəlxalq hüquq normalarını və ölkə qanunlarını büsbütün tapdalamaqla, əhalini xəbərdar etmədən Bakı şəhərində fövqəladə vəziyyətin tətbiqinə başladı. Sovet Ordusu hissələrinin, xüsusi təyinatlı dəstələrin, daxili qoşunların iri kontingentinin və hətta SSRİ-nin ermənilərin sıx yaşadığı digər regionlarından olan ehtiyatdakı hərbçilərin iştirakı ilə həyata keçirilmiş hərbi təcavüz nəticəsində paytaxtda dinc əhaliyə divan tutuldu, yüzlərlə insan qətlə yetirildi, yaralandı və itkin düşdü. Həmin qətliamdan bir gün sonra, yanvarın 21-də xalqımızın böyük oğlu Heydər Əliyev Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək Bakıda kütləvi qırğın törətmiş SSRİ hakimiyyətini və Azərbaycanın yarıtmaz rəhbərliyini kəskin ittiham edən bəyanat verdi. Azərbaycan xalqının məruz qaldığı bu dəhşətli və amansız terroru dünyanın mütərəqqi qüvvələri də qətiyyətlə pislədi.

Azərbaycanda vaxtında dərindən araşdırılmayan və adekvat qiymətini almayan faciəyə yalnız bir neçə il sonra ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi. Azərbaycan Respublikası Prezidentinin “20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında” 1994 cü il 5 yanvar tarixli Fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edildi. Milli Məclisin 1994-cü il martın 29-da qəbul

etdiyi Qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi.

1990-cı ilin 20 yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar.

Azərbaycan bu mübariz oğul və qızlarının şücaətini daim yüksək qiymətləndirir, onların ruhuna ehtiram göstərir, xatirəsini hər zaman uca tutur. Ölkəmizin ərazi bütövlüyü, xalqımızın azadlığı və dövlətimizin müstəqilliyi yolunda canlarını fəda etmiş həmvətənlərimizin – günahsız Qanlı Yanvar qurbanlarının əziz xatirəsini bir daha dərin hüznlə yad edərək, faciənin otuzuncu ildönümü ilə əlaqədar, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının ərazisində və ölkəmizin hüdudlarından kənarda 20 Yanvar faciəsinin otuzuncu ildönümünə həsr olunmuş anma mərasimləri keçirilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər planını hazırlasın və onun həyata keçirilməsini təmin etsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 dekabr 2019-cu il.